# Şuşa Humanitar Kolleci ənənələrinə sadiqdir

***❒ "Bu gün Bakıdakı 161 saylı orta məktəbə sığınmış, özünün 28 illik məcburi köçkün həyatını yaşayan Şuşa Humanitar Kolleci (Şuşa Mədəni-Maarif Texnikumu) mədəniyyət sahəsində orta ixtisaslı kadr hazırlığını davam etdirməkdədir. Nə qədər çətinliklər olsa da, bu təhsil ocağının kollektivi öz gücünə, dövlətimizin qayğısına arxalanaraq, öz gözəl ənənələrini qoruyub saxlaya bildi". Bunu bizimlə söhbətində kollecin direktoru Rasim Mehdiyev dedi.***



Rasim müəllim deyir ki, indi kollektivimiz Şuşaya qayıtmağa hazırlaşır. İşğaldan azad olunmuş Şuşada artıq abadlıq-quruculuq işlərinə start verilmişdir. Cənab Prezident İlham Əliyev Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbulu zamanı demişdir: "Təbii ki, düşmən Şuşanı talan edib, viran qoyub, dağıdıb. Şuşada olarkən, bu acı mənzərəni seyr edərkən adamın ürəyi ağrıyır. Amma biz bütün infrastruktur layihələrini icra edərək Şuşanı tez bir zamanda bərpa edəcəyik". Bizim kollecin binası da dağıdılıb. Amma inanırıq ki, tezliklə bərpa ediləcək və kollecimiz Şuşada fəaliyyətini davam etdirəcək.

Direktor bildirdi ki, biz Bakıda qonağıq, dövlətimizin səyi, Ali Baş Komandanın müdrik siyasəti sayəsində doğma torpaqlarımız azad olundu və biz Şuşaya qayıdacağıq. Şuşanı haqlı olaraq Qafqazın konservatoriyası adlandırırlar. Şuşa Üzeyir bəy, Seyid Şuşinski, Xan Şuşinski kimi bəstəkar və müğənnilər yetirən torpaqdır. Burada keçirilən "Xarı bülbül" beynəlxalq festivalına dünyanın bir çox ölkələrindən musiqi xadimləri gəlirdilər. Onu da demək istəyirəm ki, kollecimiz musiqiçi kadrların yetişdirilməsində böyük rol oynamışdır və bundan sonra da bu istiqamətdə fəaliyyətimizi davam etdirəcəyik.

Şuşa yenidən qurulacaq. Onun mədəni həyatı özünə qaytarılacaq. Möhtərəm Prezidentimizin dediyi bu sözləri xatırlatmaq istəyirəm: "Eyni zamanda, biz, əlbəttə ki, Şuşanın bərpadan sonrakı həyatını da geniş müzakirə edəcəyik. Mən artıq Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan etmişəm. Bərpadan sonra Şuşada həyat qaynamalıdır. İnsanlar qayıdandan sonra Şuşanın çox zəngin mədəni həyatı olmalıdır. Həm ölkə daxilindəki tədbirlər, eyni zamanda, bir çox beynəlxalq tədbirlər – festivallar, müsabiqələr, qastrollar orada keçirilməlidir. Yəni Şuşa nəinki Azərbaycanın, əminəm




ki, bölgənin mədəniyyət paytaxtı adına layiq olacaqdır".

Rasim müəllim əminliklə bildirdi ki, bizim kollektiv də bu prosesdə yaxından iştirak edəcək.

Direktor son illər kollecdə aparılan islahatlardan və struktur yeniliklərindən də danışdı. Bildirdi ki, Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci bəndini rəhbər tutaraq orta ixtisas təhsil müəssisələri şəbəkəsinin optimallaşdırılması, təkrarlanmanın aradan qaldırılması, idarəetmənin, maliyyələşdirmənin, kadr hazırlığının səmərəsinin və keyfiyyətinin yüksəldilməsi məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarına əsasən, Şuşa Musiqi Kolleci Şuşa Humanitar Kollecinə birləşdirilmişdir.

Bundan sonra Şuşa Humanitar Kollecinin fəaliyyəti daha da təkmilləşmiş, tələbələrin təhsili üçün yeni imkanlar yaradılmışdır. Hökumətimizin bu qərarı müəllim və tələbə kollektivində böyük ruh yüksəkliyinə səbəb olmuşdur. Ümumiyyətlə, Şuşa Humanitar Kollecinin istər musiqi, istərsə də qeyri-ixtisaslar üzrə nailiyyətləri nümunə ola bilər.

Əvvəllər Ağcabədidə, sonra Bakıdakı Neft Texnikumu binasında fəaliyyət göstərən kollec 1996-cı ildən 161 saylı orta ümumtəhsil məktəbində məskunlaşmışdır.

Kollecin 85 illik yubileyinin qeyd olunması ilə bağlı Prezident sərəncamını kollektivimiz böyük iftixar hissi ilə qarşılamışdır. Yüksək səviyyədə qeyd olunan yubiley tədbirlərinin keçirilməsi bu təhsil ocağında pedaqoji kollektivin məsuliyyətini xeyli artırmışdır.

Şuşa Humanitar Kolleci ən çətin anlarda belə öz ənənələrini qoruyub saxlamağa çalışıb. Bu təhsil ocağının pedaqoji kollektivi həmişə yetişdirdikləri kadrların zamanın, dövrün tələblərinə uyğun, yüksək səviyyəli olması üçün səyini əsirgəmir.

Kollecimizin kollektivi öz doğma məkanımıza qayıdacağımız günü səbirsizliklə gözləyir və biz də Şuşanın mədəni həyatının zənginləşməsinə öz töhfələrimizi verməkdə qətiyyətliyik.

***Qələmə aldı:***
***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 3 fevral.- S.7.